

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ *qapısı*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 126 (23.538)

*6 avqust 2020-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*İcmal*

## 2020-ci il Naxçıvan üçün uğurlu tarixə çevrilməkdədir

### *Bunu ilin birinci yarısının yekunları məlum olan ötən ayın sosial mənzərəsi də təsdiqlədi*

***Özündən əvvəlki 6 ayın nəticələrinin təhlil olunduğu və statistik göstəricilərin müəyyənləşdiyi iyul ayı muxtar respublikamızda ilin birinci yarısının uğurlarını tarixə yazmaqla bərabər, həm də ilin ikinci yarısının başlanğıc ayı kimi həyata keçirilən tədbirlərin əhəmiyyətliliyi ilə yaddaşlara həkk olundu. İctimai-siyasi, sosial-iqtisadi, mədəni sahələri bütövlükdə əhatə edən bu tədbirlər 30 ilə yaxın blokada həyatını tarixdə bir ilk olaraq inkişaf və tərəqqi ilə birgə yaşayan Naxçıvanın ümumi mənzərəsinə iyul ayının fonunda öz töhfələrini verdi. Bütün bunlar isə ümummilli liderimizin yolunun ölkə Prezidenti cənab İlham Əliyev və muxtar respublika rəhbəri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir.***



İyul ayının ilk yaddaqalan tədbiri illərdən bəri şəhər və kəndlərində genişmiqyaslı quruculuq işləri aparılmaqla, yeni inzibati binalar və sosial obyektlər tikilməklə, rahat yollar çəkilməklə, əhalisinin rifahı yaxşılaşdırılmaqla inkişafın bir neçə mərhələsini keçən Şərur rayonunda həyata keçirildi. İyulun 2-si Təqaüdçülər Klubunun və "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının binasının istifadəyə verilməsi, yeni yaradılmış innovativ dərnəklərin təqdimatı bu rayonu Azərbaycanın ən inkişaf etmiş inzibati ərazisinə çevirmişdir.

Qeyd edək ki, Şərur rayonunda 117 mindən artıq əhali yaşayır ki, onun da 10 min 800-ə yaxını, yəni 9,2 faizi əmək pensiyaçılarıdır. Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının Şərur Rayon Təşkilatının 522, Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının Şərur Rayon Təşkilatının isə 131 üzvü vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov Təqaüdçülər Klubunun açılış mərasimində iştirak etmişdir.

Təqaüdçülərin asudə vaxtlarının səmərəli təşkili üçün stolüstü oyunların və yarışların keçirilməsi, qəzet və jurnalların oxunması, kitab mütaliəsinin təmin olunması, gənclərlə görüşlərin təşkili sahəsində lazımi imkanlar yaradılmış ikimərtəbəli klub istilik sistemi ilə təchiz edilmiş, həyətdə abadlıq işləri aparılmış, musiqili fəvvarə quraşdırılmışdır. Ali Məclisin Sədri musiqili fəvvarəni işə salmış, yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmişdir.

Əgər bir neçə il bundan əvvəl kəndlərimizdə bütün xidmət sahələrinin bir yerdə fəaliyyətini özündə ehtiva edən yeni infrastruktur layihənin – kənd məkəzlərinin yaradılması həyata keçirilməyə başlanmış, bununla kənd sakinlərinin hər hansı bir xidmət üçün rayon mərkəzlərinə getmək əziyyəti, vaxt itkisi aradan qaldırılmışdırsa, sonrakı dövrdə "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin rayon filiallarının yaradılması da eyni amala xidmət edir. Bank xidmətinin rayonlarda təşkil olunması muxtar respublikamızda həyata keçirilən digər çoxistiqamətli işlərin məğzində yenə də insan amilinin əsas yer tutduğunun göstəricisidir. İyulun 2-də Şərur rayonunda "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının yeni binasının istifadəyə verilməsi 2014-cü ildən burada fəaliyyət göstərən cəmiyyətin filialının işinin daha da təkmilləşdirilməsi baxımından təqdirəlayiqdir. Biznes, kənd təsərrüfatı, ailə təsərrüfatı, istehlak və ipoteka kreditlərinin verilməsi, eyni zamanda kassa əməliyyatları və pul köçürmələri kimi bütün maliyyə əməliyyatları həyata keçiriləcək filialın açılışında Ali Məclisin Sədri iştirak etmişdir. "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Şərur rayon filialının binasının istifadəyə verilməsinin mühüm əhəmiyyət kəsb etdiyini, bankın hər bir bölgənin inkişaf göstəricisi olduğunu diqqətə çatdıran muxtar respublika rəhbəri filialın hüquqi və fiziki şəxslər, eləcə də fərdi sahibkarlar daxil olmaqla, 6 mindən artıq aktiv bank hesabına malik olduğunu, eyni zamanda 5 bankomat, 8 ödəniş terminalı və 80-ə yaxın POS-terminal vasitəsilə əhaliyə xidmət göstərdiyini bildirmişdir.

Bu gün muxtar respublikada məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyətinin düzgün istiqamətləndirilməsi prioritetə çevrilmişdir. Yaradılan innovativ dərnəklər özündə istedadların üzə çıxarılmasını ehtiva edərək məktəbdənkənar müəssisələrdə tətbiq edilən yeni metod kimi yetişməkdə olan gənc nəsil üçün böyük əhəmiyyətə malikdir. Həmin gün Şərur Rayon Uşaq-Gənclər Yaradıcılıq, Texniki Yaradıcılıq və Turizm-Diyarşünaslıq mərkəzlərində, eləcə də Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Liseydə yaradılmış innovativ dərnəklərin təqdimatı bu sahədə görülən işlərin davamıdır. Ali Məclisin Sədri dərnəklərin fəaliyyəti ilə maraqlanmış və demişdir: ***"Yeni innovativ dərnəklərin yaradılması müasir dövrün tələbidir. Muxtar respublikada bu işə Naxçıvan şəhərində başlanılmış, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində yeni innovativ dərnəklər yaradılmış və yaxşı nəticələr qazanılmışdır. Belə ki, həmin dərnəklərə cəlb olunmuş uşaqların əl işlərindən ibarət "İstedadlı şagirdlər" albom-kataloqu nəşr olunmuşdur. Şərur rayonundakı məktəbdənkənar təhsil müəssisələrində 48 dərnək fəaliyyət göstərir ki, bunların da 16-sı yeni yaradılan innovativ dərnəklərdir. Hazırda Culfa rayonunun məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti və orada yeni innovativ dərnəklərin yaradılması istiqamətində işlər görülür. Ordubad rayonunda da bu sahədə tədbirlər başa çatmaq üzrədir".***

Muxtar respublikamızda enerji təhlükəsizliyinin bərpa olunması istiqamətində mühüm işlər həyata keçirilmişdir. 1990-cı illərin əvvəllərində elektrik enerjisi sarıdan olmazın çətinlikləri ilə üz-üzə qalan muxtar respublikanın bu gün nəinki özünü elektrik enerjisi ilə təmin etməsi, həm də bu sahədə ixracatçı səviyyəsində olması qürur doğurur. Bu, ötən illərin gərgin zəhmətinin bəhrələridir. Ümummilli liderimiz Heydər Əliyev muxtar respublikaya rəhbərlik etdiyi dövrdən başlayaraq Naxçıvanda elektrik stansiyalarının qurulması işinə diqqətlə yanaşmış, 1992-ci ildə Qaz-Turbin Elektrik Stansiyası istifadəyə verilmişdir. Sonrakı dövrdə muxtar respublikanın elektrik enerjisinə olan tələbatı qardaş Türkiyə Respublikasından çəkilmiş elektrik xətti vasitəsilə ödənilirdi. Ölkə Prezidentinin sərəncamları ilə muxtar respublikada 87 meqavatlıq Modul Elektrik Stansiyası, yeni su və günəş elektrik stansiyaları tikilmiş və nəticədə, muxtar respublikanın enerji təhlükəsizliyi tam təmin olunmuşdur. İyulun 8-də Kəngərli rayonundakı 3 meqavat gücündə yeni Günəş Elektrik Stansiyasının istifadəyə verilməsini, görülən işlərin uğurlu nəticəsi kimi dəyərləndirmək olar. Belə ki, yeni stansiyanın fəaliyyətə başlaması ilə Naxçıvan Muxtar Respublikasında Günəş Elektrik stansiyalarının illik istehsal gücü 40,5 milyon kilovat-saat çatdırılmışdır. Açılış tədbirində iştirak edən Ali Məclisin Sədri demişdir: ***"Hazırda muxtar respublikada elektrik enerjisinə olan tələbatın 55 faizi bərpa olunan enerji mənbələri hesabına ödənilir. İstifadəyə verilən günəş elektrik stansiyalarının ümumi gücü 27 meqavata bərabərdir. Ötən il Kəngərli rayonu ərazisində 2 meqavatlıq Günəş Elektrik Stansiyası istifadəyə verilmişdir. Bu gün isə rayonda 3 meqavat gücündə yeni Günəş Elektrik Stansiyası fəaliyyətə başlayır. Kəngərli rayonunda istifadəyə verilən günəş elektrik stansiyaları rayon üzrə abonentlərin 32 faizə yaxınını elektrik enerjisi ilə təmin etmək gücündədir".***

Təbii ehtiyatları, sərvətləri və nemətləri ilə zəngin olan diyarımızda təbiətin mühafizəsinə, yaşıllıq sahələrinin artırılmasına xüsusi diqqət və qayğı göstərilir. İllərdən bəri muxtar respublikada ətraf mühitin qorunması və zənginləşdirilməsi istiqamətində ən təqdirəlayiq tədbir olan iməciliklər vasitəsilə hər il yeni meyvə bağları, meşə zolaqları salınmaqla diyarımız yaşıllıqlar məkanına çevrilmişdir. Havaların isti keçdiyi bu günlərdə isə meyvə bağlarına və yaşıllıq zolaqlarına aqrotexniki qaydada qulluq göstərmək, ağacları vaxtlı-vaxtında suvarmaq mühüm əhəmiyyət daşıyır. İyulun 11-də keçirilən və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun da iştirak etdiyi iməcilikdə muxtar respublikamızın bütün bölgələrində yaşıllıq zolaqları və meyvə bağlarına aqrotexniki qulluq göstərilmişdir.

Naxçıvanda yetişməkdə olan gənc nəslin nümayəndələrinə diqqət və qayğı bütün sahələrdə istedadlı gənclərin üzə çıxmasına səbəb olmuşdur. Ali Məclisin Sədri cənab Vasif Talıbovun 2020-ci il 9 iyul tarixli Sərəncamı ilə xüsusi istedadı olan iki gəncin adının Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılması və onların Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülməsi də bu qayğının bütün naxçıvanlıları qürurlandıran davamıdır.

İyulun 14-də – ulu öndərin ölkəmizə rəhbər seçilməsinin 51-ci ildönümündə Azərbaycan Respublikasının medal və fəxri adlarının, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc istedadlara xüsusi aylıq təqaüdünün təqdimat mərasimi keçirilmişdir. Ali Məclisin Sədri çıxış edərək demişdir: ***"Ötən əsrin 90-cı illərinin əvvəlində Heydər Əliyevin siyasətdən kənarlaşması nəticəsində Azərbaycan faciələrlə üzləşdi. Lakin 1993-cü ildə ümummilli liderimizin xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı sabitliyə, inkişaf və tərəqqiyə qovuşdurdu. Hazırda bu yolun uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə sabitlik və inkişaf vardır. Azərbaycan inkişaf etmiş dünya dövlətləri sırasında öz layiqli yerini tutub. Ölkəmizin inkişafında xidməti olanların, fərqlənənlərin əməyi isə dövlətimiz tərəfindən qiymətləndirilir. Bu gün təltif olunanlar, dövlətimizin ali mükafatlarına layiq görülənlər də çalışdıqları sahələrdə əməkləri ilə seçilən, fərqlənən şəxslərdir".***

Ali Məclisin Sədri təltif olunanları təbrik etmiş və onlara gələcək fəaliyyətlərində uğurlar arzulamış, Azərbaycan Respublikası medallarının, fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etmişdir.

Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasının çağırılması haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2020-ci il 17 iyul tarixli Qərarına əsasən iyul ayının 21-də Ali Məclisin növbəti sessiyası keçirilmiş, sessiyada 2020-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları və cari məsələ olmaqla, iki məsələ müzakirə edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 2020-ci ilin birinci yarısında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları barədə məruzə etmiş, cari ilin birinci yarısında ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında ümummilli liderimiz Heydər Əliyevin yoluna sədaqətin əsas inkişaf göstəriciləri üzrə müsbət dinamikanın qorunub saxlanılmasına səbəb olduğunu, sosial-iqtisadi islahatlar və tikinti-quraşdırma işlərinin davam etdirildiyini, qarşıya qoyulan vəzifələrin icrasının diqqətdə saxlanıldığını, əhali rifahının yaxşılaşdırılması, xüsusilə insanların sağlamlığının qorunması və pandemiya ilə mübarizə sahəsində ardıcıl tədbirlərin görüldüyünü bildirmişdir. Ali Məclisin Sədri, eyni zamanda nazirlik, komitə, xidmət və digər dövlət qurumları qarşısında vəzifələr müəyyən etmiş, 2020-ci ilin ikinci yarısında da muxtar respublikanın sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə islahatların davam etdirilməsi, makroiqtisadi sabitliyin qorunub saxlanılması, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında işə tələbkarlığın artırılması, nizam-intizama əməl edilməsi, qarşıya qoyulmuş vəzifələrin vaxtında icra olunması kimi tapşırıqlar vermişdir.

Ulu öndərin yolunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin Azərbaycan və onun Naxçıvan Muxtar Respublikasının 2020-ci ili də bütün sahələrdə uğurlu nailiyyətlərlə başa vurmağa imkan verdiyini vurğulayan Ali Məclisin Sədri məqsədin ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu inkişaf, sabitlik və rifahı daha da möhkəmləndirməkdən ibarət olduğunu bildirmiş, bu yolda və qarşıya qoyulan vəzifələrin icrasında hər kəsə uğurlar arzulamış, çıxışını ulu öndərin fikirləri ilə tamamlayaraq demişdir: ***"Hamı üçün bir istiqamət olmalıdır: Azərbaycanın müstəqilliyini qorumaq, Azərbaycanın ərazi bütövlüyünü qorumaq, Azərbaycan Respublikasında siyasi sabitlik yaratmaq və Azərbaycan Respublikası vətəndaşlarının rahat yaşaması üçün şərait yaratmaq".***

Mətbuat zamanın güzgüsüdür. Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti ilə təməli qoyulan milli mətbuatımızın yaranmasından 145 il keçir. Ötən ay ölkəmizdə, eləcə də muxtar respublikamızda milli mətbuatın 145 illik yubileyi geniş şəkildə qeyd edilmişdir. İyulun 22-də Naxçıvan Muxtar Respublikasında milli mətbuatımızın yubileyi münasibətilə keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov çıxış etmişdir. Milli mətbuatımızın 145 illiyi, eyni zamanda 1990-cı il iyulun 22-də ümummilli lider Heydər Əliyevin Naxçıvana gələrək buradan xilaskarlıq

*Ardı 2-ci səhifədə*

missiyasına başlaması ilə dövlətçilik tarixi baxımından əlamətdar olan gün münasibətilə tədbir iştirakçılarını, onların timsalında muxtar respublikanın bütün mətbuat işçilərini və əhalisini təbrik edən Ali Məclisin Sədri demişdir ki, milli mətbuatımızın əsası 145 il bundan əvvəl qoyulsa da, müstəqil mətbuatımız ümummilli liderimizin muxtar respublikaya rəhbərlik etdiyi dövrdə Naxçıvanda yaradılmışdır. Ulu öndərimizin ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra isə Azərbaycanda mətbuatın inkişafı sahəsində əsaslı işlər görülmüş, dövlət-mətbuat münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. Bu gün ümummilli liderimizin yolunu bütün sahələrdə uğurla davam etdirən ölkə Prezidenti mətbuatın inkişafına da xüsusi qayğı göstərir. Artıq ölkəmizdə xalqının taleyini, dövlətinin bu gününü və gələcəyini düşünən, dünyada gedən prosesləri təhlil edən, milli mənafeyimizi qoruyan mətbuat ordusu formalaşmışdır.

Azərbaycanın tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da mətbuatın inkişafı sahəsində mühüm işlər görüldüyünü vurğulayan muxtar respublika rəhbəri bu gün Naxçıvanda "Şərq qapısı", 8 şəhər və rayon qəzetinin, elm və ali təhsil müəssisələrinin qəzetlərinin, 3 televiziya, 3 radio, 1 informasiya agentliyinin və onlarla internet informasiya resurslarının, nəşriyyatların, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun, Mətbuat Şurasının, Televiziya və Radio Şurasının fəaliyyət göstərdiyini, bunların da öz ətrafında 400-ə yaxın jurnalisti birləşdirdiyini bildirmişdir. ***" Bu, böyük bir nailiyyət, yaradılan şəraitin, ən əsası isə birgə əməyin nəticəsidir"***, – deyən Ali Məclisin Sədri muxtar respublikada mətbuatın formalaşmasında və inkişafında əməyi, fəaliyyəti olan bütün jurnalistlərə təşəkkürünü bildirmiş, onlarla fəxr etdiyini söyləmiş və demişdir: ***"Həyata keçirilən tədbirlər muxtar respublikada informasiya blokadasını yarmışdır. Artıq muxtar respublikada baş verən hadisələr qısa müddətdə bütün dünyada yayılır. Dünyanın müxtəlif ölkələrində yaşayan ekspertlər, tədqiqatçılar Naxçıvanla bağlı məlumatlar əldə edirlər. Muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafı bundan sonra da diqqətdə saxlanılacaqdır. Hər bir jurnalist isə öz qələmi ilə Vətəninə, xalqına xidmət etməlidir".***

İyul ayının ilk tədbiri kimi son tədbiri də Şərur rayonu ilə bağlı olmuş, ötən ay muxtar respublikamızın davamlı və kompleks inkişaf mərhələsində olan ən böyük bölgəsinə öz töhfəsini vermişdir. Belə ki, ayın əvvəlində üç böyük quruculuq ərməğanından sonra ayın sonunda – iyulun 24-də Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin açılışı olmuşdur. Ali Məclisin Sədri bu münasibətlə keçirilən tədbirdə iştirak etmiş, Arpaçay subölücüsündə yeni tikilmiş qalereyaya baxmışdır. Muxtar respublika rəhbərinə "Şərur şəhər və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsinə əsasən tikilmiş qalereya haqqında ətraflı məlumat verilmişdir.

***"Bu ərazilərdə əhalinin içməli su təminatında daim çətinliklər olmuşdur. Ona görə də kollektiv tikilənlərdən səmərəli istifadə etməli, onları qorumalı, sutəmizləyici qurğu saz vəziyyətdə saxlanılmalıdır. Bilməlisiniz ki, 30 minə yaxın insanın su təminatı sizin gündəlik əməyinizin nəticəsində mümkün olacaqdır"***, – deyən Ali Məclisin Sədri sutəmizləyici qurğunu işə salmış, yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş, ərazidə yaşıllıqların salınması barədə tapşırıqlar vermişdir.

Adıçəkilən layihə çərçivəsində rayonun Cəlilkəndində də yeni içməli su şəbəkəsi qurulmuşdur. Həmin gün kənddə içməli su şəbəkəsinin açılışı münasibətilə keçirilən tədbirdə Ali Məclisin Sədri iştirak etmişdir. ***"Cəlilkənd ziyalılar kəndidir. Şərur rayonunda ilk məktəb və kitabxana burada yaradılıb. Rayon ərazisindəki yeganə buzxana abidəsi də Cəlilkənddədir. Kəndin qədim tarixi və zəhmətkeş insanları vardır. Ona görə kəndin inkişafı mərhələ-mərhələ həyata keçirilib, insanların rahat yaşayışı üçün şərait yaradılıb. İçməli su təminatı da sakinlərin uzun illər çəkdiyi əziyyətə son qoyub"***, – deyən Ali Məclisin Sədri sakinlərə təbriklərini çatdırmış, içməli su şəbəkəsinin qurulmasında əməyi olanlara təşəkkür etmiş, şəbəkənin istifadəyə verilməsini bildirən qurğunu işə salmış, Şərur rayonunun Sərxanlı kəndində də içməli su şəbəkəsinin qurulması barədə tapşırıqlar vermişdir.

*Bəli, uğurla başlayan iş müvəffəqiyyətlə başa çatar demişlər. Muxtar respublikamızda ümummilli liderimizin müəyyənləşdirdiyi və illərdən bəri sürətlə həyata keçirilən hərtərəfli inkişaf konsepsiyasının cari ilin birinci yarısında da uğurlu göstəricilərlə nəticələnməsi və ulu öndərimizin Moskvadan Bakıya, oradan isə Naxçıvana gəlməsi ilə əlamətdar olan iyul ayında görülən işlər 2020-ci ilin də Naxçıvan üçün uğurla başa çatacağından xəbər verir. Nəzərə alsaq ki, yaşadığımız il dünyada mövcud pandemiyanın iqtisadiyyatlara böyük zərərləri ilə müşahidə olunur, belə bir dövrdə muxtar respublikamızda əldə olunan nailiyyətlər, həqiqətən də, düşünülmüş siyasətin bəhrələridir.*

**Mətanət MƏMMƏDOVA**

## Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasından irəli gələn vəzifələr müzakirə olunub



Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsində altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin üçüncü sessiyasında qarşıya qoyulan vəzifələrə həsr olunmuş kollegiya iclasını giriş sözü ilə açan komitə sədri Vaqif Rəsulov bildirib ki, ötən dövr ərzində şəhər və rayon statistika idarələri ilə birlikdə 10 min 937 təsərrüfat subyektindən 36 min 350 sayda hesabat yığılıb. Bunların da 100 faizi onlayn rejimdə təqdim olunub. Hesabatlar komitə aparatının aidiyyəti şöbələri tərəfindən ümumiləşdirilərək analiz edilib, muxtar respublika üzrə iqtisadi, sosial, demoqrafik və ekoloji sahələrin vəziyyətinə dair göstəricilər əldə edilib.

Azərbaycan Respublikası Prezidentinin "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıya alınmasının keçirilməsi haqqında" 2016-cı il 7 sentyabr tarixli Fərmanına əsasən 2019-cu ilin oktyabr ayında əhalinin növbəti siyahıyaalınması keçirilib. Mühüm dövlət tədbirinin əsas icraçısı kimi Dövlət Statistika Komitəsi tərəfindən 2020-ci ilin yanvar ayında muxtar respublikanın şəhər və rayon statistika idarələrindən qəbul olunmuş əhalinin siyahıyaalınmasına aid materialların operatorlar tərəfindən xüsusi proqram təminatına işlənilməsinə başlanılıb və cari ilin iyun ayında başa çatdırılıb. 114 min 269 siyahıyaalma və 458 min 910 sorğu vərəqəsində olan məlumatların etektron məlumat bazası yaradılıb, yekun məlumatların əldə olunması istiqamətində işlər davam etdirilir.

Vurğulanıb ki, "2018-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 2 mart tarixli Sərəncamının icrası istiqamətində 2020-ci ildə nəzərdə tutulmuş tədbirlərin icrası davam etdirilir. Bununla yanaşı, müvafiq Dövlət proqramının icrası istiqamətində 2019-cu ildə istifadəyə verilmiş "Statistik Məlumatlar Sistemi"nin normal fəaliyyəti diqqətdə saxlanılıb, yeni proqram təsnifatlarının yaradılması, mövcud proqram təminatlarında yeniliklərin aparılması diqqətdə saxlanılıb. Həmçinin muxtar respublika mətbuatında Naxçıvanın sosial-iqtisadi vəziyyətini əks etdirən kompleks materiallar dərc olunub, kütləvi informasiya vasitələri müvafiq məlumatlarla təmin olunub.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *

Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsində cari ilin birinci yarısının yekunlarına həsr olunmuş iclası idarənin sədri Elvin Axundov açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən banklar və kredit təşkilatları tərəfindən 1 iyul 2020-ci il tarixə muxtar respublika iqtisadiyyatına yönəldilən kredit qoyuluşu 191 milyon 578 min manat, o cümlədən qısamüddətli kredit qoyuluşu 8 milyon 544 min manat, uzunmüddətli kredit qoyuluşu isə 183 milyon 34 min manat təşkil edir. Kredit qoyuluşu, əsasən, Dövlət proqramlarının icrasına, real sektorun, kiçik və orta sahibkarlığın inkişafına yönəldilib.

Qeyd olunub ki, bank və kredit təşkilatları tərəfindən 2020-ci ilin yanvar-iyun ayları ərzində 85 milyon 375 min manat kredit verilib ki, bunun da 9 milyon 670 min manatı qısamüddətli, 75 milyon 705 min manatını isə uzunmüddətli kredit təşkil edir. Kreditlərin 5 milyon 598 min manatı kənd təsərrüfatı, 11 milyon 260 min manatı sənaye, 226 min manatı tikinti, 2 milyon 35 min manatı kommersiya, 723 min manatı nəqliyyat, rabitə və informasiya, 1 milyon 767 min manatı daşınmaz əmlakla əlaqədar ipoteka kreditlərinin, 63 milyon 766 min manatı isə digər kommunal, sosial və istehlak kreditlərinin verilməsi kimi sahələrə yönəldilib.



Muxtar respublika ərazisində POS-terminalların quraşdırılması işinə toxunan idarə sədri bildirib ki, 1 iyul 2020-ci il tarixə muxtar respublikada 1310 POS-terminal quraşdırılıb, hazırda bu istiqamətdə işlər davam etdirilir. Görülən işlərin nəticəsidir ki, cari ilin birinci yarısında POS-terminallar və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi 40 milyon 283 min manat olub. Aparılan nağdsız ödənişlərin 15 milyon 144 min manatı POS-terminallar vasitəsilə, 25 milyon 139 min manatı isə internet və digər ödəniş vasitələri üzərindən həyata keçirilib. Bununla yanaşı, 1 iyul 2020-ci il tarixədək muxtar respublikada 113 ədəd bankomat quraşdırılıb. Həmçinin bu dövrədək ödəmə terminallarının sayı 66 ədəd təşkil edib.

Müşavirə məruzə ətrafında çıxışlarla davam etdirilib.

* * *

Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının 2020-ci ilin birinci yarımilinin yekunlarına həsr olunmuş kollegiya iclasını şuranın sədri Anar İbrahimov açıb. Bildirilib ki, bu ilin mart ayında şuranın tabeliyində olan muxtar respublika, şəhər (rayon) Birləşmiş Həmkarlar İttifaqı Komitəsi və ilk təşkilatların fəaliyyətinə yenidən baxıb, şurada struktur dəyişikliyi aparılıb, komitələrin və ittifaq üzvlərinin say tərkibində yol verilmiş nöqsanlar aradan qaldırılıb. Şuranın tabeliyində 6 muxtar respublika, 10 şəhər (rayon) birləşmiş həmkarlar ittifaqı komitəsi və 1012 ilk təşkilat fəaliyyət göstərir, 45894 ittifaq üzvünü öz ətrafında birləşdirir. Onlardan 23097 nəfərini qadın, 22797-ni isə kişilər təşkil edir. Gənc ittifaq üzvlərindən qadınların say tərkibi 5675 nəfər, kişilərin say tərkibi isə 4109 olub. Bu dövr ərzində gənclərin həmkarlar ittifaqlarında ilk təşkilatın sədri kimi məsul vəzifələrə irəli çəkilməsi də diqqət mərkəzində saxlanılıb, onlarla gənc bu vəzifəyə irəli çəkilib.



Vurğulanıb ki, Həmkarlar İttifaqları Şurası tərəfindən əməkçi insanların sosial-iqtisadi və hüquqi mənafelərinin qorunması da diqqətdə saxlanılıb, 16 aprel 2020-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti, Həmkarlar İttifaqları Şurası və Sahibkarlar Konfederasiyası arasında 2020-2022-ci illər üçün Baş Kollektiv Saziş bağlanıb. Naxçıvan Muxtar Respublika, rayon (şəhər) Birləşmiş Həmkarlar İttifaqı komitələri isə öz tabeliyində olan təşkilatlarla kollektiv əmək müqaviləsi bağlanmasına nail olub. Xüsusilə muxtar respublikadakı sosial-iqtisadi inkişafın yaratdığı əlverişli mühit əmək bazarına da sirayət edib, aparılan uğurlu siyasət nəticəsində mövcud iş yerlərinin qorunub saxlanılmasına nail olunub.

Bildirilib ki, 30-31 iyul 2020-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə muxtar respublika üzrə aztəminatlı və xüsusi qayğıya ehtiyacı olan 1026 ailəyə, ümumilikdə, 44959 manat məbləğində ərzaq payı verilib. Həmçinin hesabat dövründə şura muxtar respublikanın müvafiq dövlət qurumları ilə birgə əməyin mühafizəsi ilə bağlı tədbirlərin həyata keçirilməsinə diqqət yetirib, bu sahədə monitorinq və müşahidələr davam etdirilib. Bəhs olunan dövrdə şuranın Əmək müfəttişliyi xətti ilə istehsalatda xəsarətlə bağlı iki hadisənin araşdırılmasına dair komissiyanın tərkibində işlər aparıb.

Müşavirə məruzə ətrafında çıxışlarla davam etdirilib.

Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətində birinci yarımilin yekunları ilə əlaqədar iclası xidmətin rəisi Ramin İsmayılov açıb. Diqqətə çatdırılıb ki, muxtar respublika üzrə təbii qaz istehlakçılarının ümumi sayı 90436 olub, bunun da 87739-u əhali, 2697-si isə qeyri-əhali abonentlərdir. Müraciətlərə əsasən cəmi 431 ədəd mənzil (ev) və müxtəlif təyinatlı obyektlər qazlaşdırılıb ki, bunun 389-u əhali, 42-si isə qeyri-əhali abonentlərdir.

Vurğulanıb ki, muxtar respublikanın şəhər, rayon qaz istismar idarələrinin qəza dispetçer sahələrində 2020-ci ilin 6 ayı ərzində 5722 çağırış daxil olub.

Bəhs olunan dövrdə xidmətin "Servis" stansiyasında istismardan çıxarılan nasaz smartkarttipli məişət qaz sayğacları diaqnostik müayinə və kompüter vasitəsilə test edilərək ortaya çıxan problemləri aradan qaldırmaqla 358 ədəd smartkarttipli elektron məişət qaz sayğacı istismara yararlı vəziyyətə gətirilib.



Eyni zamanda əhali qrupundan olan abonentlərin mexaniki qaz sayğaclarının kənar müdaxilələrdən qorunması üçün 221 ədəd mühafizə qutusu quraşdırılıb. Naxçıvan şəhərində mexaniki qaz sayğaclarının smartkarttipli qaz sayğacları ilə əvəz olunması istiqaməti üzrə işlər davam etdirilib. 1 iyul tarixə, ümumilikdə, 20237, o cümlədən ilin 6 ayı ərzində 256 qaz sayğacı quraşdırılıb.

Sonda məruzə ətrafında çıxışlar dinlənilib.

* * *

Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyində keçirilən müşavirədə agentliyin direktoru Vüqar Babayev məruzə edib. Bildirib ki, hesabat dövründə agentlik tərəfindən dini təyinatlı ədəbiyyatların, əşyaların və dini məzmunlu başqa məlumat materiallarının muxtar respublika ərazisində yayılmasına nəzarətin həyata keçirilməsi ciddi nəzarətdə saxlanılıb. Belə ki, ekspert rəyi verilməsi üçün müvafiq orqanlardan agentliyə 954 dini təyinatlı ədəbiyyat daxil olub, aparılmış araşdırma nəticəsində dövlətçiliyimizə zidd, ayrı-seçkilik yaratmağa xidmət edən ifrat məzhəbçilik prinsipini təbliğ edən 162 adda 355 dini təyinatlı ədəbiyyatın muxtar respublika ərazisində yayılmasının qarşısı alınıb. Bundan əlavə, agentlik Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura ilə birlikdə Naxçıvan Muxtar Respublikasının rayon və kəndlərində fəaliyyət göstərən qadın din xadimlərinin attestasiyasını həyata keçirib. Həmçinin agentlik Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şura ilə birlikdə dinin düzgün təbliğinə xüsusi diqqət yetirilməsi, din xadimlərinin biliklərinin artırılması, dini təhsil almağa meyilli olan sakinlər üçün təkmilləşdirmə kursları təşkil edib.



Diqqətə çatdırılıb ki, hesabat dövründə xarici ölkələrdəki müqəddəs yerlərə ziyarətlərin təşkili ilə əlaqədar olaraq bir sıra tədbirlər həyata keçirib. Agentlik və Naxçıvan Muxtar Respublikası Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyası yarımillik iş planlarına uyğun olaraq dövlət-din münasibətlərinin tənzimlənməsi və milli-mənəvi dəyərlərimizin təbliği, maarifləndirmə işlərinin təşkili istiqamətlərində fəaliyyət göstərib.

Müşavirənin sonunda məruzə ətrafında çıxışlar olub.

**Xəbərlər şöbəsi**

Dövlət proqramı icra olunur

# Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı tədbirlər davam etdirilir

*Ölkəmizin ən qədim meyvəçilik regionlarından olan Naxçıvan Muxtar Respublikasında aqrar sektorun müxtəlif sahələrində qəbul edilən Dövlət proqramları inkişafa təkan verir, ayrı-ayrı istiqamətlər üzrə nailiyyətlərin qazanılmasına gətirib çıxarır. Muxtar respublikanın əlverişli iqlim şəraiti meyvəçiliyin və tərəvəzçiliyin inkişafına da şərait yaradır, əhalinin meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi ilə bağlı tədbirlər uğurla davam etdirilir. Əldə olunan nəticələrin əsasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası dayanır.*

Aprelin 4-də keçirilən iməciliklərdə də yeni meyvə bağlarının və yaşıllıqların salınması diqqət mərkəzində olmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov iməcilikdə iştirak etmiş, meyvə tingləri əkmişdir. Ali Məclisin Sədri yaz əkini mövsümündə meyvə bağlarının salınmasının davam etdirilməsi və yaşıllıqlara qulluq göstərilməsi barədə tapşırıqlar vermişdir. İkinci rübdə muxtar respublikada, ümumilikdə, 43,6 hektar sahədə yeni meyvə bağları salınmışdır. Naxçıvan-Sədərək və Naxçıvan-Ordubad avtomobil yolunun kənarlarında aparılan əkin-bərpa işlərində 1763, Naxçıvançay, Əlincəçay, Gilançay çayları boyunca aparılan əkin-bərpa işlərində 3 min 225 meyvə tingindən, 36 kiloqram meyvə və giləmeyvə toxumlarından istifadə edilmişdir. Əsasən, dağlıq-dağətəyi zonalarda, relyefi mürəkkəb olan ərazilərdə, kənd təsərrüfatı üçün yararsız olan torpaqlarda yabanı meyvə və giləmeyvə, həmçinin mədəni meyvə toxumlarından istifadə olunmaqla 87 hektar sahədə 522 kiloqram toxumla əkin aparılmışdır. Şoranlaşmış və ya eroziyaya uğramış sahələrin müəyyənləşdirilərək əkin dövriyyəsinə daxil edilməsi davam etdirilmiş, əkin-bərpa işlərində 3 min 450 meyvə tingindən istifadə olunmuşdur.







Tarixən Naxçıvanda meyvə və tərəvəzin zəngin genofondu formalaşmışdır. Bu genetik fondun qorunub saxlanılması məqsədilə yerli meyvə-tərəvəz sortlarının toxum materiallarının toplanılması və təcrübə sahəsinə əkilərək biologiyasının öyrənilməsi Dövlət proqramında müəyyən edilən mühüm tapşırıqlardandır. İkinci rübdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun Nəbatat bağındakı üzüm genofondu sahəsində və “Araz” Elm-İstehsalat Birliyinin Babək rayonu ərazisində təcrübə pitomnikində əkilmiş yeni seleksiya üzüm sort və formaları üzərində fenoloji müşahidə işlərinə başlanılmış, tənəklərin çiçəkləmə fazasına qədər genetik xüsusiyyətləri öyrənilmişdir. Təcrübə sahəsinə 5 yeni üzüm sort və formaları əlavə edilmiş, onların ampelo-deskriptor xüsusiyyətlərinin tədqiqi və tənəklərin genetik xüsusiyyətləri araşdırılmışdır. Bu istiqamətdə fenoloji müşahidə işləri davam etdirilir. Aprel-iyun aylarında muxtar respublikada 1,4 hektardan çox ərazidə müxtəlif növ meyvə toxumlarından ibarət toxmacarlıq, yerli üzüm sortlarından ibarət qələmkökləndirmə sahələri yaradılmış, eyni zamanda 26 min 500 üzüm, 15 min iydə, 500 sarağan qələmi əkilmiş, dibçəkdə müxtəlif növ 1000 meyvə tingi yetişdirilmişdir. Ekoloji təmiz kənd təsərrüfatı məhsullarının istehsalının dəstəklənməsi, genetik modifikasiya olunmuş məhsulların muxtar respublikaya idxalının və dövriyyəsinin qarşısının alınması ilə bağlı tədbirlər də davam etdirilmişdir. Ailə təsərrüfatçıları üçün “Üzvi və qeyri-üzvi gübrələr”, “Genetik modifikasiya olunmuş məhsullar”, “Ekoloji təmiz kənd təsərrüfatı məhsulları” mövzularında maarifləndirici bukletlər hazırlanmışdır. Kənd təsərrüfatında ziyanvericilərin və xəstəliklərin qarşısının alınması istiqamətində 966 hektar taxıl və meyvə bağlarında gəmiricilərə, 66 hektar kartof sahəsində Kolorado kartof böcəyinə qarşı kimyəvi mübarizə tədbirləri aparılmışdır.

Əkin sahələrinin genişləndirilməsi, ixtisaslaşmış meyvə və tərəvəzçilik təsərrüfatlarının yaradılması, ixracyönümlü məhsul istehsal edən sahibkarlara maliyyə dəstəyinin göstərilməsi aqrar sektorda tərəqqini təmin edən başlıca amillərdir. Aprel-iyun aylarında Dövlət proqramında müəyyən edilmiş tapşırıqların icrası istiqamətində dövlət maliyyə dəstəyi hesabına Şərur rayonunda 2 hektar sahədə kartof əkini aparılmış, meyvə-tərəvəz məhsullarının qablaşdırılması sahəsinin, 1 bağçılıq təsərrüfatının, 1 istixana təsərrüfatının fəaliyyətinin bərpası, Sədərək rayonunda meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi sahəsinin yaradılması, Babək rayonunda 12 hektar torpaq sahəsində qarğıdalı və bostan bitkilərinin əkini, Culfa rayonunda 1 bağçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır. Şərur rayonunun Danyeri kəndində 1 fiziki şəxsə 3 hektar ərazidə müxtəlif növ meyvə, 1 hektar ərazidə isə üzüm bağının salınması üçün 5 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Özəl investisiya qoyuluşu hesabına Şərur rayonunda 3, Babək rayonunda 2, Culfa rayonunda 1 istixana təsərrüfatının yaradılması başa çatdırılmışdır. Ümumilikdə, Sahibkarlığın İnkişafı Fondu tərəfindən ikinci rübdə kənd təsərrüfatı yönümlü 20 layihənin maliyyələşdirilməsinə 333 min 900 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

Torpaqların su təminatının yaxşılaşdırılması meyvəçilik və tərəvəzçilik sahəsində məhsuldarlığın artırılması istiqamətində xüsusi əhəmiyyətə malikdir. Həyata keçirilən meliorasiya və irriqasiya tədbirləri əkin dövriyyəsinə qatılan torpaq sahələrinin çoxalmasına və nəticədə, meyvəçiliyin və tərəvəzçiliyin sürətli inkişafına təkan verir. Dövlət proqramının icrası istiqamətində cari ilin ikinci rübündə Kəngərli rayonunun Böyükdüz kəndində 800, Şahbuz rayonunun Türkeş kəndində 270 hektar sahədə qapalı suvarma şəbəkəsinin, Külüs kəndində nasos stansiyası və təzyiqli boru xəttinin tikintisi davam etdirilmişdir. Sədərək rayonunun Heydərabad qəsəbəsində 1,6 kilometr suvarma boru xətti quraşdırılmışdır. Yaşıllıq ərazilərinin suvarılması üçün muxtar respublika üzrə 3 kilometr suvarma boru xətti çəkilmiş, 9 kilometr boru xəttində təmir-bərpa, həmçinin 52 kilometr kanallarda və 62 kilometr arxlarda lildən təmizlənmə işləri yerinə yetirilmişdir.

Muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlərdən biri də soyuducu anbarların yaradılmasıdır. Bu anbarların yaradılması həm məhsulları qış dövründə istehlakçıya çatdırmağa, həm də ixracı daha da artırmağa imkan verir. Eyni zamanda soyuducu anbarların mövcudluğu alıcıya keyfiyyətli meyvə və tərəvəz məhsullarının hər mövsüm münasib qiymətlə təklif olunmasına da şərait yaradır. “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nda meyvə və tərəvəz məhsullarının saxlanması üçün soyuducu anbarların yaradılmasının davam etdirilməsi ilə bağlı tapşırıq müəyyən edilmişdir. Aprel-iyun aylarında dövlət maliyyə dəstəyi hesabına Şərur rayonunda 1 soyuducu anbarın yaradılması, digərinin yenidən qurulması başa çatdırılmış, özəl investisiya qoyuluşu hesabına Culfa rayonunda 1 soyuducu anbarın yaradılması davam etdirilmişdir. Sahibkarlığın İnkişafı Fondu tərəfindən cari ilin ikinci rübündə Şərur rayonunun Yengicə kəndində 1 fiziki şəxsə soyuducu anbarda yenidənqurma işlərinin aparılması üçün 26 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Hazırda muxtar respublikada tutumu 18 min 940 ton olan 40 soyuducu anbar fəaliyyət göstərir.

Məhsulun bolluğuna və münasib qiymətli olmasına təsir edən amillər arasında soyuducu anbarların yaradılması qədər istixana təsərrüfatlarının çoxaldılması da mühüm yer tutur. Əhalinin qış aylarında faraş tərəvəz məhsullarına olan tələbatının ödənilməsi üçün müasir istixana komplekslərinin qurulması və mövcud sahələrin genişləndirilməsi istiqamətində cari ilin ikinci rübündə dövlət maliyyə dəstəyi hesabına Şərur rayonunda 1 istixana təsərrüfatının fəaliyyətinin bərpası, həmçinin özəl investisiya qoyuluşu hesabına 3, Babək rayonunda 2, Culfa rayonunda 1 istixana təsərrüfatının yaradılması başa çatdırılmışdır. Payız-qış mövsümündə muxtar respublika əhalisinin keyfiyyətli tərəvəz məhsullarına olan tələbatının ödənilməsi məqsədilə hazırda muxtar respublikada 138 min 139 kvadratmetr sahədə 30 müasir istixana kompleksi fəaliyyət göstərir.

Məhsulun keyfiyyətli olması istehsalçı üçün satış qabiliyyətinin yüksəkliyi, istehlakçı üçün sağlamlıq, bütövlükdə, dövlət üçün iqtisadiyyatın inkişafı deməkdir. Naxçıvan Muxtar Respublikasında bazara təqdim olunan bütün məhsulların keyfiyyəti nəzarətdə saxlanılır ki, bu istiqamətdə meyvə-tərəvəz və onlardan hazırlanmış məhsullar xüsusi yer tutur. Aprel-iyun aylarında “İstehlak Mallarının Ekspertizası” Məhdud Məsuliyyətli Cəmiyyətinin Mərkəzi Qida Sınaq Laboratoriyasında meyvə-tərəvəz məhsullarından götürülən 27 nümunə laboratoriya analizlərinə cəlb edilmişdir. Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən aparılan monitorinqlər üzrə məhsulların 79 halda keyfiyyət və ya təhlükəsizlik göstəriciləri yoxlanılmışdır. Toxumların müəyyən olunmuş tələblərə cavab verməsinə nəzarət davam etdirilmiş, pomidor, xiyar, balqabaq və yonca toxumlarından nümunələr seçilərək analizləri aparılmış, keyfiyyət göstəricilərinin standartların tələblərinə uyğunluğu müəyyən edilmişdir.

Aqrar sektorun iqtisadiyyatın inkişafına təkan verən faktora çevrilməsi üçün kənd təsərrüfatı məhsullarının kütləvi istehsalı dövründə sağlam rəqabət mühitinin yaradılması və daxili bazarın qorunması xüsusi önəm kəsb edir. Dövlət proqramında da bu məqsədlə müvafiq tədbirlərin görülməsi, o cümlədən yarmarkaların təşkilinin davam etdirilməsi nəzərdə tutulmuşdur. İkinci rübdə bu istiqamətdə meyvə və tərəvəz məhsullarının qonşu ölkələrdən idxalının qarşısının alınması davam etdirilmiş, eyni zamanda əhalinin ucuz və keyfiyyətli məhsullara olan tələbatının ödənilməsi üçün Naxçıvan şəhərində hər həftənin şənbə və bazar günlərində yarmarkalar təşkil olunmuşdur. Yarmarkalarda ailə təsərrüfatları ilə yanaşı, 25 yerli istehsal müəssisəsinin iştirakı təmin edilmişdir.

*Tingçilik təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsi intensiv bağçılığın inkişaf etdirilməsinə, yaşıllaşdırma işlərinin əhatə etdiyi sahələrin çoxalmasına və muxtar respublikaya xaricdən ting idxalının azaldılmasına səbəb olur. Aprel-iyun aylarında Şərur və Babək rayonlarında 4,5 hektar tingçilik təsərrüfatında müxtəlif meyvə növlərinin məhsuldar sortlarından ting yetişdirilmiş və satışı həyata keçirilmişdir. Ümumilikdə, bu dövrdə 127 min 500-ə yaxın ting satılmış, 70 minə yaxın meyvə tingi payız mövsümündə əkin üçün hazır vəziyyətə gətirilmişdir.*

**“Şərq qapısı”**

*Muxtar respublikada meliorasiya və irriqasiya sistemlərinin yenidən qurulması sahəsində tədbirlər davam etdirilir.*

## Yeni meliorasiya və irriqasiya sistemlərinin tətbiqi genişləndirilir



Əkin sahələrinin suvarma suyu ilə təmin olunması, torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması məqsədilə iyul ayında bir sıra tədbirlər görülmüş, 10 kilometr beton və torpaq kanal, 17,7 kilometr ara arxlar və 4,5 kilometr kollektor lildən təmizlənmiş, 230 metr yeni qapalı drenaj xətti çəkilmiş, 93,5 hektar torpaq sahəsində qrunt sularının səviyyəsi aşağı salınaraq şoranlaşmanın qarşısı alınmışdır. Qeyd olunan dövrdə 9,4 kilometr yeni suvarma xətti çəkilmişdir.

Muxtar respublika üzrə ötən ay su istifadəçilərinə 32,2 milyon kubmetr su verilmiş, bunun müqabilində 27 min 360 hektar torpaq sahəsi suvarılmışdır. Həmçinin torpaq sahələrini sel sularının zərərli təsirindən qorumaq üçün çay və selovlarda selə qarşı 2,8 kilometr istiqamətləndirici bənd salınmışdır. Kəngərli rayonunun Böyükdüz kəndində 800, Şahbuz rayonunun Türkeş kəndində 270 hektar ərazidə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilmiş, 8,6 kilometr suvarma xətti çəkilmiş, 112 supaylayıcı hovuz və suvarma hidrantı quraşdırılmışdır.

“Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması” layihəsi çərçivəsində Şərur rayonunda Cəlilkənddə içməli su sisteminin tikintisi başa çatdırılmış, müxtəlif diametrli plastik borularla 18,3 kilometr içməli su xətti çəkilmiş, ev birləşmələri aparılmışdır. 342 abonentlə müqavilə bağlanaraq sayğac quraşdırılmış, 2222 sakin fasiləsiz olaraq içməli su ilə təmin olunmuşdur. Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin tikintisi başa çatmışdır. Sutəmizləyici qurğu saniyədə 236 litr sutəmizləmə gücünə malikdir və 27 min 700 istifadəçiyə xidmət edir.

Babək rayonunun Nehrəm qəsəbəsi və Araz kəndində 11,1 kilometr su və 8,5 kilometr kanalizasiya, Sədərək rayonunda 320 metr su, 5,2 kilometr kanalizasiya, Kəngərli rayonunda isə 11,5 kilometr su xətti çəkilmişdir.

**Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti**

## “Naxçıvan” Universiteti daha bir beynəlxalq layihəyə tərəfdaş seçilib

“Naxçıvan” Universitetinin Beynəlxalq əlaqələr şöbəsi yeni akademik ildə daha bir irimiqyaslı beynəlxalq layihənin icrasında iştirak edəcək. Belə ki, ali təhsil ocağı yeni beynəlxalq layihəyə – Erasmus+ proqramı tərəfindən maliyyələşdirilən ECAR (Azərbaycan Rektorlar Konfransının Yaradılması) layihəsinə tərəfdaş seçilən universitet Naxçıvandan bu layihəyə qoşulan yeganə universitetdir.

Qeyd edək ki, layihə 2020-ci il üçün Avropa Komissiyası tərəfindən qəbul edilmiş yeganə milli layihədir. Bakı Biznes Universitetinin koordinatoru olduğu layihənin məqsədi Rektorlar Konfransı yaratmaq, universitetlər arasında güclü şəbəkə və əməkdaşlığı dəstəkləmək, milli inkişaf strategiyasına uyğun olaraq Rektorlar Konfransının yaradılması ilə universitetlər və digər maraqlı tərəflər arasında milli şəbəkə və əməkdaşlığı inkişaf etdirməkdir. Layihədə Azərbaycandan 15, Avropadan isə 5 ali təhsil müəssisəsi və təşkilatı iştirak edir.

**Seyfur HACIMURADOV**

***Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının onlayn konserti olub. Konsert proqramında xalq mahnıları və Azərbaycan bəstəkarlarının yaradıcılığından nümunələr səsləndirilib. Ansamblın bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdin Babayev, baletmeysteri Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Tamerlan Bağırov, xormeysteri İlhamə Şirəliyevadır.***

# Mahnı və rəqs ansamblının onlayn konserti olub





Qeyd edək ki, 1959-cu ilin sentyabrında Naxçıvan Dövlət "Araz" Mahnı və Rəqs Ansamblı kimi fəaliyyətə başlayaraq Azərbaycanın bütün bölgələrində, Orta Asiya və Qafqaz ölkələrində qastrol çıxışları ilə dinləyicilərin rəğbətini qazanan kollektiv muxtar respublikada gənc musiqiçi kadrların yetişməsində də əvəzsiz rol oynayıb. Ansambl ətrafına topladığı istedadlı musiqiçilərin uğurlu fəaliyyəti nəticəsində kifayət qədər böyüyüb, professional ifaçılıq qabiliyyətinə görə mükəmməl kollektivə çevrilib. 1983-cü ildə həmin ansamblın bazası əsasında bugünkü Naxçıvan Dövlət Filarmoniyası yaradılıb. Ötən il ansamblın yaradılmasının 60 illiyi qeyd olunub.

Onlayn konsertdə filarmoniyanın solistlərindən Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Zülfiqar Mahmudov "Gül açdı" xalq mahnısını, "Heyratı" ritmik muğamını (Nərmin Hüseynova ilə birlikdə), Ruhiyyə Hüseynova və Bəhruz Quliyev Ramiz Mirişlinin "Səadət"mahnısını, müğənnilərdən Cəfər Tağıyev "Dilkəş" təsnifini, Samiddin Vəliyev "Tel oynasın" xalq mahnısını, Hüseyn Qasımov Emin Sabitoğlunun "Heç xəbərin yoxdur sənin", Nərmin Hüseynova Tahir Əkbərin "Gülüb getdi", Məhərrəm Quliyev Səid Rüstəmovun "Gəl-gəl, maralım" mahnılarını ifa ediblər.

Konsert proqramında Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Sona Əliyeva "Yüzbiri" xalq rəqsini, ansamblın qızlardan ibarət rəqs qrupu isə Cahangir Cahangirovun "İncəlik" rəqsini izləyicilərə təqdim ediblər.

Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının "Gənclik" rəqsi ilə başa çatan onlayn konsert təqribən bir saata yaxın davam edib. Konsert proqramı da digər onlayn mədəniyyət tədbirləri kimi Naxçıvan Dövlət Televiziyasında və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin rəsmi internet resurslarında canlı olaraq yayımlanıb.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin iyul ayında verilən elektrik enerjisinin həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 6405,0 | 470,8 | 470,8 | 100,0 |
| 2. | Şərur rayonu | 2615,0 | 185,5 | 185,5 | 100,0 |
| 3. | Babək rayonu | 2342,0 | 168,2 | 168,2 | 100,0 |
| 4. | Ordubad rayonu | 1322,0 | 94,0 | 94,0 | 100,0 |
| 5. | Culfa rayonu | 1632,0 | 119,3 | 119,3 | 100,0 |
| 6. | Kəngərli rayonu | 794,0 | 58,8 | 58,8 | 100,0 |
| 7. | Şahbuz rayonu | 377,0 | 26,8 | 26,8 | 100,0 |
| 8. | Sədərək rayonu | 283,0 | 20,0 | 20,0 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 28639,7 | 2577,6 | 2578,3 | 100,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **44409,7** | **3721,0** | **3721,7** | **100,0** |

**Qeyd:** İyul ayında texniki itki nəzərə alınmaqla daxil olan 44 milyon 409 min 700 kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 721 min manat olmuş, cəmi 3 milyon 721 min 700 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 100,0 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin iyul ayında verilən təbii qazın həcmi, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Kəngərli rayonu | 293769 | 31993 | 31996 | 100,0 |
| 2. | Naxçıvan şəhəri | 1142540 | 130890 | 130902 | 100,0 |
| 3. | Şərur rayonu | 776819 | 83285 | 83290 | 100,0 |
| 4. | Babək rayonu | 705728 | 82156 | 82160 | 100,0 |
| 5. | Ordubad rayonu | 452685 | 48383 | 48385 | 100,0 |
| 6. | Şahbuz rayonu | 289550 | 31535 | 31536 | 100,0 |
| 7. | Culfa rayonu | 370757 | 39856 | 39857 | 100,0 |
| 8. | Sədərək rayonu | 92078 | 9578 | 9578 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 10384240 | 1616744 | 1582131 | 97,9 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **14508166** | **2074420** | **2039835** | **98,3** |

# Təmizlik aksiyası keçirilib



12 avqust – Beynəlxalq Gənclər Günü münasibətilə Uzunoba gölü ətrafında təmizlik aksiyası keçirilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirlikləri və Gənclər Fondunun birgə təşkil etdiyi aksiyada 30 gənc iştirak edib. Aksiyanı keçirməkdə məqsəd gənclərin maarifləndirilməsi və onların asudə vaxtlarının səmərəli təşkili, ətraf mühitin mühafizəsi və bununla bağlı məsuliyyət hissini daha da artırmaq olub.

Tədbirdə çıxış edən Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Ayaz Cabbarov, Təhsil Nazirliyinin əməkdaşı Rəşad Adıgözəlov və Gənclər Fondunun əməkdaşı Arzu Qasımov bildiriblər ki, gənclərə lazımi diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində iştirakına təkan vermək məqsədilə avqustun 12-si 1998-ci ildən etibarən Beynəlxalq Gənclər Günü kimi dünyada geniş qeyd olunur. Ölkəmizdə gənclərə ən yüksək diqqət və qayğı göstərilir, uğurlu dövlət gənclər siyasəti həyata keçirilir. Bu gün gənclərin asudə vaxtlarının səmərəli təşkili dövlət gənclər siyasətinin tərkib hissəsidir. Naxçıvan Muxtar Respublikasında da bu sahədə ardıcıl tədbirlər həyata keçirilir, gənclərin mənalı istirahəti təmin edilir. Onların müasir dövrün tələb və çağırışlarına hazırlıqlı olması, müasir biliklərə yiyələnməsi, beynəlxalq aləmdə rəqabətədavamlı şəkildə yetişmələri daim diqqət mərkəzində saxlanılır. Sosial həyatın bütün sferalarına nəzər salsaq, görərik ki, orada gənclər əksəriyyət təşkil edir. Bu gün diyarımızda gənclər milli dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, yeni ideyaların təşəbbüskarı və dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşır. Ən əsası isə muxtar respublika gəncləri dövlətçilik ənənələrini daim uca tutur, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyüyürlər.

Çıxışlardan sonra aksiya iştirakçılarına təmizlik avadanlıqları paylanılıb, gölün ətrafı tullantı və daşlardan təmizlənib.

Aksiyada iştirak edən gənclərin fikirlərini öyrəndik:

***Salatın Məmmədova:*** – Təmizlik aksiyası çərçivəsində Uzunoba gölü ətrafındakı məişət tullantılarının, eyni zamanda daşların toplanmasına nail olduq.



Tədbir çərçivəsində burada istirahət edən qonaqların diqqətini ətraf mühitin mühafizəsinə yönəltmək, həmçinin davranışımızla ətrafdakılara örnək olmaq vacib idi. Hər bir kəs əlindən gələn köməkliyi göstərməklə ətraf mühitin təmizliyinin qeydinə qalmalıdır. Bəzən bunun üçün, sadəcə, məişət tullantılarını təmizləmək belə kifayət edir. Bu cür aksiyaların keçirilməsi həm də gənclərin bir araya toplanması və asudə vaxtlarının səmərəli təşkili üçün əla fürsətdir.

***Çinar Hacıyev:*** – Bu aksiya artıq təmizlik mədəniyyətinin bir hissəsinə çevrilib.



Əsas məqsədimiz gözəlliklər məskəni olan doğma diyarımızı təmiz saxlamaq və onun təbiətini qorumaqdır. Buna görə də hazırda Uzunoba çimərliyində artıq tullantıları təmizləyərək bu işə öz töhfəmizi veririk. Bu, çox gözəl təşəbbüsdür və alqışlanmalıdır. Aksiyada iştirak etmək gənclər üçün xeyirxah bir işdir.

**✍ Ceyhun MƏMMƏDOV**

# Muxtar respublikada ekoloji tarazlıq qorunur



Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə sosial-ekoloji siyasət ötən ay ərzində də uğurla həyata keçirilmişdir. Hesabat ayında ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə məqsədilə 8 yoxlama-reyd keçirilmiş, 3 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür.

Ötən ay ekoloji monitorinqlər davam etdirilmişdir. Bu məqsədlə Şərur, Ordubad, Babək, Şahbuz, Sədərək və Culfa rayonlarının yaşayış məntəqələri ərazilərində monitorinqlər aparılmış, məişət, tibbi və bərk tullantıların idarəolunması kimi fəaliyyət sahələrində qiymətləndirmə işləri həyata keçirilmişdir. İyul ayında Araz və Arpaçay çaylarının muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən Şir arxından su nümunələri götürülərək Sədərək Rayon Su Monitorinq Laboratoriyasında analizlər aparılmış, nəticəyə görə sularda çirklənmə hallarının yol verilə bilən qatılıq həddini keçməsi qeydə alınmamışdır.

Hesabat ayında da muxtar respublika ərazisində yaşıllıqların, meşələrin qorunması və artırılması diqqətdə saxlanılmışdır. Belə ki, Naxçıvan Sement Zavodunun ətrafında salınmış püstə bağına aqrotexniki qaydada qulluq göstərilmiş, dərmanlama işləri görülmüş, su arxı təmir olunmuş, damcı üsulu ilə suvarma aparılmışdır. Qoşadizə tingçilik sahəsindəki toxmacarlıqlarda 7,6 hektar sahədə suvarma aparılmış, 1,8 hektar sahə alaq otundan təmizlənmişdir. Həmçinin 818 kiloqram müxtəlif meyvə və meşə ağaclarının toxumları tədarük olunmuşdur. Toxum tədarükü mövsümə uyğun olaraq davam etdirilir.

Ötən illərdə salınmış meyvə bağlarına aqrotexniki qaydada qulluq göstərilmiş, suvarma aparılmış, ərazilərə üzvi gübrələr verilmişdir. Uzunoba Su Anbarının yuxarı hissəsindəki meyvə bağlarında 365, Uzunoba Dövlət Meşəsi ətrafındakı ərazidə 100, Duzdağ Fizioterapiya Mərkəzinə gedən yolun sol kənarındakı meyvə bağında isə 30 ədəd dibçəkdə yetişdirilmiş müxtəlif meyvə tingləri ilə bərpa aparılmışdır. Eyni zamanda yaşıllıq zolaqlarında ağacların ziyanverici həşəratlardan mühafizə olunması üçün dərmanlama işləri görülmüşdür.

Geoloji Axtarış və Kəşfiyyat İdarəsi üzrə geoloji axtarış, kameral və ümumi xarakterli işlər yerinə yetirilmişdir.

Ərəzin sahəsində aparılacaq mövsümi çöl işlərinə hazırlıq yekunlaşdırılaraq bu işə başlanılmışdır. Aparılan axtarış-qiymətləndirmə işləri zamanı səpinti qızılın yer səthində və dərinlikdə yayılma qanunauyğunluqlarını öyrənmək məqsədilə kəşfiyyat şəbəkəsinə uyğun olaraq yerüstü dağ qazma işləri, şurf keçilmiş, yerüstü dağ qazmalarından 25 ədəd şırım sınağı götürülmüşdür. Naxçıvan şəhəri, "48-ci" məhəllədə tikiləcək yeni binaların smeta sənədləri hazırlanmış, mühəndis-geoloji işlərinə başlanılmışdır.

Naxçıvan Muxtar Respublikasında yaradılacaq İlandağ Geoparkının ərazisinə aid Culfa, Ordubad, Babək sahələrindəki geosidlərin fotoları çəkilmiş və onlar haqqında qısa məlumat hazırlanmışdır.

2020-ci ilin yaylaq mövsümü dövründə Culfa rayonunun Dəmirli ərazisində, Şahbuz rayonunun Qanlıgöl yaylağı, Gömür dağı ərazilərində və Ordubad rayonundakı yaylaqlarda məskunlaşmış fermerlərlə maarifləndirici söhbətlər aparılmışdır. Belə maarifləndirici tədbirlər bundan sonra da davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Şərur rayon Yengicə kəndində yaşamış Məmmədova Zəhra Məmmədəli qızının adına olan JN-158A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 574